Ədalət .- 2025.- 4 iyul(№24).- S.2.

# TƏBRİK

## Daxili İşlər Naziri general polkovnik Vilayət Eyvazov cənablarına



**Çox hörmətli cənab general polkovnik!**

Bu gün dövlətimizin və xalqımızın xidmətində dayanan Azərbaycan polisinin 107 yaşı tamam olur. Tarixə nəzər yetirsək, şanlı bir yol keçmiş Azərbaycan polisi ilə hər birimiz qürur duya bilərik. Belə ki, həm dinc həyatda, həm də Qarabağ savaşında, döyüş meydanlarında düşmənə qarşı rəşadətlə döyüşən dinc sakinlərimizin qorunması, torpaqlarımızın müdafiəsi üçün hətta canından keçən polis əməkdaşları bütün dünyaya sübut etmişdilər ki, onlar üçün Azərbaycan insanının həyatı və təhlükəsizliyi ən önəmli vəzifədir. Ona görə də istənilən düşmənlə, istənilən cinayətkarla mübarizə aparmağa Azərbaycan polis bütün səviyyələrdə hər zaman hazırdır.

**Cənab nazir!**

Sıralarında Milli Qəhrəmanların, ən yüksək mükafatlara layiq görülmüş igid polis əməkdaşlarının da olduğu Daxili işlər orqanlarının təkcə torpaqlarımızın azad edilməsindəki xidmətləri unudulmaz və təkrarolunmaz bir xidmət səlnaməsidir. Faktlara diqqət yetirsək görərik ki, Qarabağ müharibələrində Azərbaycan Polisi 900-dən artıq şəhid vermiş, onlardan 62-si Milli Qəhrəman adına layiq görülmüş, 400-dən də çox polis qazi olmuşdur. 2023-cü ildə Qarabağda separatizmin kökünün kəsilməsində Azərbaycan Polisi qəhrəmanlıq nümayiş etdirmişdir. Son illər narkotiklərə qarşı polisimizin apardığı mübarizəni də xüsusi qeyd etmək istəyirəm.

Bizim hər birmiz bu səlnamənin şahidləriyik. Yeri gəlmişkən, onu da vurğulayım ki, təkcə ön cəbhədə deyil, həm də dinc həyatda insanlarımızı təhlükələrdən qorumaq üçün özünü qurban verən polis əməkdaşları da kifayət qədərdir. Bütün bunlar onu göstərir ki, əqidəsi və məramı Azərbaycan dövlətinə və xalqına xidmət etmək olan polisimiz hər zaman hər birmizin yanındadır.

Bunun üçün ölkə prezidenti cənab İlham Əliyevin Daxili İşlər orqanlarının fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində atdığı addımlar, verdiyi tapşırıqlar, imzaladığı fərman və sərəncamlar öz bəhrəsini zaman-zaman ortaya qoymuşdur. Bu gün fəxrlə deyə bilərik ki, polisimizin maddi-texniki bazası ən yüksək səviyyədədir. Həmçinin, polis əməkdaşlarının ictimai-hüquqi bilikləri də günbəgün artmaqdadır.

**Cənab nazir!**

107 yaşı tamam olan polisimizin - Sizin rəhbərliyiniz altında dövlətimizə xidmət edən hər bir əməkdaşını peşə bayramınız münasibətiylə ürəkdən təbrik edirəm. Azərbaycan polisinə eşq olsun! - deməklə uğurlar diləyirəm. İnanıram ki, bizim polisimiz həmişə olduğu kimi bizimlə olacaq və Azərbaycan insanının qarşısında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəkdir. Bir daha peşə bayramınız mübarək.

**Hörmətlə Aqil Abbas**
**Milli məclisin deputatı, yazıçı**